**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclasının**

**P R O T O K O L U № 2**

**Naxçıvan şəhəri** **18 mart 2024-cü il**

18 mart 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilmişdir.

**Sədrlik edən:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli

**Katib:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin üzvü Aidə Allahverdiyeva

**İclasda iştirak etdilər:**

1. Cəlilzadə Aidə Məhəmməd qızı -Komitənin sədr müavini
2. Bağırsoylu Hüseyn Qədirulla oğlu -Komitənin üzvü
3. Həsənov Nüsrət Firudin oğlu -Komitənin üzvü
4. İbrahimov Qadir Abbas oğlu -Komitənin üzvü
5. Səfərli Hacıfəxrəddin Yəhya oğlu -Komitənin üzvü
6. Zeynalov Eldar Əhməd oğlu -Komitənin üzvü

**Dəvət olunanlar:**

1. Tofiq Rəcəbli-Qanunvericilik və hüquq məsələləri şöbəsi müdirinin müavini
2. Vahidə Bayramova-Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının İnsan hüquqlarının müdafiəsi şöbəsinin müdiri

**İclasın gündəliyi:**

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2023-cü il üzrə məruzəsi barədə

İclası komitənin sədri İsmayıl Qəribli açaraq bildirdi ki, iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədr müavini və 6 üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsi müdirinin müavini Tofiq Rəcəbli və Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının İnsan hüquqlarının müdafiəsi şöbəsinin müdiri Vahidə Bayramova iştirak edir.

Qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 42.1-ci maddəsinə əsasən komitənin iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdiyindən səlahiyyətlidir.

İsmayıl Qəribli iclas iştirakçılarına gündəlikdə duran məsələ ilə bağlı məlumat verdi.

Komitə sədri bildirdi ki, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 14.1-ci və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 24-cü maddəsinə uyğun olaraq cari il bitdikdən sonra 1 aydan gec olmayaraq müvəkkil Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinə illik məruzəni təqdim edir. Buna uyğun olaraq məruzəyə komitə iclasında baxılır, həmin məruzə ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qarşısında çıxış edir.

İsmayıl Qəribli illik məruzənin Ali Məclisin aid şöbəsi tərəfindən bütün deputatlara göndərildiyini və deputatların məlumatlı olduğunu bildirdi. O İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) Aparatının İnsan hüquqlarının müdafiəsi şöbəsinin müdiri Vahidə Bayramovanın çıxış etməsini təklif etdi və deputatların məruzəyə dair təklifləri olarsa dinləniləcəyini ifadə etdi.

Ombudsmanın 2023-cü il üzrə məruzəsi barədə məlumat verməsi üçün söz Vahidə Bayramovaya verildi.

**Çıxışda:** Vahidə Bayramova bildirdi ki, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2023-cü il üzrə məruzəsi "Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 14-cü maddəsinə uyğun olaraq hazırlanmışdır. Öz fəaliyyətini müstəqillik, aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət və qərəzsizlik prinsipləri əsasında quran Ombudsmanın ünvanına 2023-cü il ərzində 274 müraciət daxil olmuşdur. Müvəkkilin icraatına daxil olan müraciətlərin sayı ötən illə müqayisədə 2,8 dəfə artmışdır.

Daxil olmuş müraciətlərin hüquqi kateqoriyasına görə ən çoxunu, yəni 24 faizini sosial təminat, 19 faizini əmək, 14 faizini hüquq və azadlıqların məhkəmə təminatı, 12 faizini isə mülkiyyət hüququ ilə bağlı müraciətlər təşkil etmişdir.

Baxılmaq üçün icraata qəbul edilmiş 231 müraciətin 59-u tam, 16-sı qismən təmin edilmişdir ki, bu da Ombudsmanın fəaliyyəti dövründə ötən illər üzrə ən yüksək göstəricidir. Müraciətlərdən 14-ü nəzarətdə saxlanılmış, 109 müraciətə baxılması zamanı hüquq pozuntusu aşkar edilməmiş, 22 müraciət üzrə hüquqi məsləhət verilmiş, 1 müraciət aidiyyəti üzrə göndərilmiş, 10 müraciət üzrə icraat davam etmişdir.

2023-cü il ərzində Ombudsman tərəfindən baxılmış müraciətlərin 28,6 faizi tam, 7,8 faizi isə qismən təmin edilmiş, müraciətlərin təmin edilmə vəziyyəti 2022-ci illə müqayisədə 19,6 faiz artmışdır.

Ombudsman 2023-cü il ərzində preventiv mexanizm funksiyalarının Naxçıvan Muxtar Respublikasında icrası sahəsində fəaliyyətini davam etdirmişdir. Ombudsman və onun Preventiv qrupu tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə saxlama şəraitinin, rəftar məsələlərinin, sənədləşdirmənin, habelə daxil olmuş müraciətlərin araşdırılması məqsədilə il ərzində 76 başçəkmə həyata keçirilmişdir. Ondan Daxili İşlər Nazirliyinin tabeliyində olan müəssisələrə 33, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələrinə 19, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının tabeliyində olan sərhəd zastavalarına 8, Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinə 3, Əlahiddə Əməliyyat Briqadasının Xüsusi Təyinatlı Dəstə hərbi hissəsinə 1, Təhsil Nazirliyinin müəssisələrinə 2 və Naxçıvan Regional Miqrasiya Baş İdarəsinin müəssisəsinə 2 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr zamanı 768 şəxslə ümumi və 152 şəxslə konfidensial görüş keçirilmişdir. Görüşlər zamanı həmin şəxslərin hüquqlarının təmini vəziyyəti öyrənilmiş, müraciətləri dinlənilmiş, bir çox məsələlər yerində həll edilmiş, digər hallarla bağlı aidiyyəti dövlət qurumlarına müraciətlər edilmişdir.

Başçəkmələr zamanı Ombudsmanın icraatına yazılı və şifahi formada 23 müraciət daxil olmuş, müraciət edənlərə operativ şəkildə hüquqları izah olunmuş, araşdırma tələb edən müraciətlər baxılmaq üçün icraata qəbul olunmuş və nəticəsi barədə müraciət edənlərə yazılı məlumatlar verilmişdir. Başçəkmələrdə müraciət edənlərin 43,5 faizinin pozulmuş hüquqları bərpa edilmiş, digər müraciətlərdə hüquq pozuntusu aşkar edilməmişdir.

Ombudsmanın əsas fəaliyyət istiqamətlərindən biri də informasiya əldə etmək hüququnun təmin edilməsidir. "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 1.3-cü maddəsinə əsasən Müvəkkil dövlət orqanlarının, bələdiyyələrin, publik hüquqi şəxslərin, onların vəzifəli şəxslərinin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarəti həyata keçirir. İstər informasiya əldə etmək hüququnun təmin edilməsinə dair müraciətlər, istərsə də, Ombudsmanın ünvanına daxil olmuş informasiya sorğuları "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada baxılaraq cavablandırılmışdır.

2023-cü il ərzində Ombudsman tərəfindən əhalinin müxtəlif kateqoriyalarının hüquqi maarifləndirilməsinə də xüsusi diqqət göstərilmişdir. Ombudsmanın təşkilatçılığı və dövlət orqanlarının, vətəndaş cəmiyyəti institutlarının, o cümlədən media nümayəndələrinin iştirakı ilə müxtəlif sosial qruplara ünvanlanmış və insan hüquqlarının müxtəlif istiqamətləri üzrə, ümumilikdə, 71 müəssisədə 49 plan üzrə, 55 plandankənar olmaqla, 104 tədbir həyata keçirilmiş və tədbirlərdə 6214 nəfər iştirak etmişdir.

Vahidə Bayramova bildirmişdir ki, məruzə 3 fəsildən ibarət olmaqla, 1-ci fəsil "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi", 2-ci fəsil "Beynəlxalq təcrübə mübadiləsi və əməkdaşlıq", 3-cü fəsil isə "Hüquqi

maarifləndirmə, elmi-analitik fəaliyyət və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq"dan bəhs edir. Məruzənin sonunda isə insan və vətəndaş hüquqları və azadlıqlarının etibarlı müdafiəsi və səmərəli təmini istiqamətində fəaliyyətin daha da təkmilləşdirilməsi məqsədilə Ombudsman tərəfindən irəli sürülmüş təkliflər səsləndirilmişdir.

**Deputatlardan İsmayıl Qəribli, Aidə Allahverdiyeva, Qadir İbrahimov, Aidə Cəlilzadə, Nüsrət Həsənov, Hacıfəxrəddin Səfərli, Hüseyn Bağırsoylu və Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsi müdirinin müavini Tofiq Rəcəbli** gündəlikdə duran məsələ ilə əlaqədar çıxış edərək təklif və suallarını səsləndirdilər.

Vahidə Bayramova səsləndirilən suallara aydınlıq gətirdi, təkliflərin nəzərə alınması üçün qeydiyyatı aparıldı.

**Çıxışda:** Komitə sədri İsmayıl Qəribli bildirdi ki, bu gün keçirilən komitə iclasında aparılan müzakirələr faydalı oldu. Müzakirələr zamanı müəyyən iradlar bildirilsə də, Ombudsmanın 2023-cü il üzrə məruzəsi 2022-ci il üzrə məruzədən daha əhatəlidir. Deputatların irad və təklifləri nəzərə alınmaqla məruzə Ali Məclisin yaz sessiyasının plenar iclasına çıxarıla və müzakirə olunaraq təsdiq oluna bilər.

İsmayıl Qəribli bildirdi ki, Ali Məclisin Hüquq siyasəti komitəsi "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 8.2.4-cü maddəsinə əsasən Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) illik məruzəsinə baxır və rəy verir.

Sonda İsmayıl Qəribli altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin qərarını oxudu və Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2023-cü il üzrə məruzəsi Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin müzakirəsinə tövsiyə edildi.

**İclasa sədrlik edən:** **İ.Qəribli**

**Katib:** **A.Allahverdiyeva**